43 (1400) 30 oktyabr - 5 noyabr 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "ZƏFƏR GÜNÜ BİZİM TARİXİMİZDƏ OLAN ƏN PARLAQ SƏHİFƏDİR"



"Düz beş il bundan əvvəl bu ərazi (Horovlu kəndi) işğaldan azad edildi və bu şanlı tarix hər zaman bizim qəlbimizdə yaşayacaq".

Bu sözləri Prezident İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşündə deyib.

Bir neçə gündən sonra tarixi Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyimizi söyləyən dövlətimizin başçısı vurğulayıb: *"8 Noyabr - Zəfər Günü bizim tariximizdə olan ən parlaq səhifədir. Beş il bundan əvvəl tarixi Zəfərimiz bütün dünyaya səs salıb"*.

## "BU GÜN BÜTÜN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR TİKİNTİ MEYDANÇASIDIR"

Bu sözləri Prezident İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşündə söyləyib.

Dövlətimizin başçısı qeyd edib: *"Artıq 50 mindən çox insan Qarabağda, Şərqi Zəngəzurda yaşayır, çalışır, təhsil alır. Onlardan təqribən 20 mini keçmiş köçkünlərdir ki, öz vətəninə, doğma torpağına qayıdıblar. Qalanlar isə müxtəlif işlərdə işləyən vətəndaşlardır"*.

Ədalətə inanmaq və onu təmin etmək lazım olduğunu söyləyən dövlətimizin başçısı vurğulayıb: *"Bax, bizim xalqımız həm ədalətə inanıb, həm də onu təmin edib. Bu torpaqların sahibləri bizik. Düşməni öz torpaqlarımızdan qovmuşuq və bu gün gözəl həyat qururuq"*.

## "BU GÜN "BÖYÜK QAYIDIŞ"IN NÖVBƏTİ MƏRHƏLƏSİDİR"

Bu sözləri Prezident İlham Əliyev Zəngilanın Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri ilə görüşündə söyləyib.

"Böyük Qayıdış" Proqramının başlanğıcının da Zəngilan rayonunda qoyulduğunu xatırladan dövlətimizin başçısı qeyd edib: "Birinci kənd - Ağalı kəndində artıq üç il yarımdır ki, insanlar yaşayır və çox gözəl şərait yaradılmışdır və gözəl də saxlanılır. Bura, bu bölgə çox önəmli nəqliyyat mərkəzlərindən birinə çevriləcək. Həm Zəngəzur dəhlizi, həm Araz dəhlizi buradan keçəcək". Dövlətimizin başçısı qeyd edib: "Ona görə bu rayonun, bu bölgənin çox gözəl gələcəyi olacaq. Necə ki, bütün Qarabağın, Şərqi Zəngəzurun gələcəyi çox parlaq olacaq. Bugünkü reallıq - qurduğumuz şəhərlər və kəndlər bunu göstərir".

## "SAHİBKARLARIN İNKİŞAFI ÜÇÜN ƏLVERİŞLİ ŞƏRAİT TƏMİN EDİLİB"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Sabirabad Sənaye Məhəlləsində "Humix" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) aqrokimyəvi vasitələrin istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub.

Əvvəlcə iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Sabirabad Sənaye Məhəlləsi barədə məlumat verib.

Qeyd edək ki, ölkədə sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü ildə imzaladığı Fərmanla müəyyən edilib. Sənaye məhəlləsinin yaradılmasında məqsəd sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarların inkişafı üçün əlverişli şəraitin təmin edilməsi və əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasıdır. Sabirabad Sənaye Məhəlləsi dövlətimizin başçısının 2017-ci ildə imzaladığı Sərəncamla yaradılıb. Məhəllənin ümumi ərazisi 20,3 hektardır.



Məhəllə sahibkarlıq subyektlərinin fəaliyyət göstərməsi üçün zəruri infrastrukturla təmin olunub. İndiyədək burada 8 rezident qeydiyyatdan keçib və fəaliyyətə başlayıb. Ümumilikdə sənaye məhəlləsində 100-dən çox iş yeri yaradılıb. Rezidentlər tərəfindən sənaye məhəlləsinə 10 milyon manatdan çox investisiya qoyulub.

## CƏBRAYIL RAYONUNUN ENERJİ XƏRİTƏSİNDƏ YENİ MƏRHƏLƏ BAŞLAYIR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Şahvəlli kəndində hər birinin gücü 50 meqavat olan "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarının təməlini qoyub.

Energetika naziri Pərviz Şahbazov dövlətimizin başçısına 50 meqavat gücündə "Şəms" Günəş Elektrik Stansiyası barədə məlumat verib.

Qeyd edək ki, 2024-cü ilin mart ayında Energetika Nazirliyi ilə "Nobel Energy" şirkəti arasında 100 MVt gücündə Günəş elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin istehsalı, satışı və istehlakı sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Ardınca bu ilin aprelində Azərbaycan Respublikası Hökuməti "Enerso Cəbrayıl" MMC ilə 50 MVt gücündə "Üfüq" Günəş Elektrik Stansiyası, "Clean Energy Jabrayil" MMC ilə isə "Şəms" Günəş Elektrik Stansiyası layihələri üzrə investisiya müqavilələri bağlayıb. Ötən il Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid 229 hektar torpaq sahəsi bərpa olunan enerji mənbələrinin inkişafı üçün ayrılıb. Bu çərçivədə "Clean Energy Jabrayil" MMC üçün 135 hektardan çox, "Enerso Cəbrayıl" MMC üçün isə 93 hektardan çox ərazi müəyyən edilib.

Prezident İlham Əliyev "Şəms" Günəş Elektrik Stansiyasının təməlini qoyub, daha sonra "Üfüq" Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib.

## İMİŞLİDƏ ARPA EMALI MÜƏSSİSƏSİNİN AÇILMASI REGİONDA AQRAR-SƏNAYE İNTEQRASİYASINI GÜCLƏNDİRİR




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də İmişlidə "Promalt" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) arpa emalı müəssisəsinin açılışında iştirak edib.

Müəssisədə pivə istehsalında əsas xammal hesab olunan arpanın xüsusi proseslərdən keçərək mayalanma və fermentasiya üçün hazır vəziyyətə gətirilməsi ilə əldə edilən məhsul - malt istehsal olunacaq. İsveçrənin "Bühler GmbH" şirkətinin müasir texnologiyası əsasında hazırlanmış avadanlıqla təchiz olunan və emal prosesi tam avtomatlaşdırılan müəssisədə ildə 11 min ton arpa istehsal ediləcək. Müəssisənin investisiya dəyəri 33,2 milyon manatdır.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu, "Azərşəkər" MMC və "Azərsun Holdinq" MMC-nin tərəfdaşlığı əsasında həyata keçirilən layihəyə dövlətin investisiya təşviqi mexanizmi çərçivəsində vergi və gömrük güzəştləri ilə dəstək göstərilib. "Carlsberg Azerbaijan" pivə zavoduna da xammal satışı həyata keçirən müəssisə Cənubi Qafqazda pivəlik arpa səmənisinin emalı üzrə ixtisaslaşmış ilk müasir istehsal obyektidir. Layihə regionda aqrar-sənaye inteqrasiyasını gücləndirməklə yanaşı, texnoloji modernləşmə, daxili bazarın dayanıqlı xammal təminatı, istehsalın lokallaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

### 28 oktyabr 2025-ci il

**Sabirabad**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabirabad Sənaye Məhəlləsində "Azera Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) toxum istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabirabad Sənaye Məhəlləsində "Taşobası" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) pambıq emalı zavodunun fəaliyyəti ilə tanış olub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabirabad Sənaye Məhəlləsində "Fırtına Su Sistemləri" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) su filtrlərinin istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub.

* * * *

**İmişli**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də İmişlidə "Promalt" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) arpa emalı müəssisəsinin açılışında iştirak edib.

* * * *

**Cəbrayıl**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıl şəhər məscidinin və ikinci və üçüncü yaşayış komplekslərinin təməlini qoyub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hacıqabul-Bəhrəmtəpə-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 197-ci kilometrindən Cəbrayıl rayonu ərazisində inşa olunan "Şəfəq" Günəş Elektrik Stansiyasına gedən avtomobil yolunun açılışında iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıl rayonunun Şahvəlli kəndində hər birinin gücü 50 meqavat olan "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarının təməlini qoyub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşüb.

Dövlətimizin başçısı kəndə köçən sakinlərə mənzillərin açarlarını təqdim edib.

* * * *

**Zəngilan**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan rayonunun Ağalı kəndinin 2-ci mərhələsinin və Məmmədbəyli kəndinin açılışlarında iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksində görülmüş işlərlə tanış olub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan rayonunun Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri ilə görüşüb.

Dövlətimizin başçısı kəndlərə köçən sakinlərə mənzillərin açarlarını təqdim edib.

# Baş nazir Əli Əsədov Belarusun Baş nazirinin müavini Natalya Petkeviçlə görüşüb



Oktyabrın 28-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Belarus Respublikası Baş nazirinin müavini, iki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın həmsədri Natalya Petkeviçlə görüşüb.

Nazirlər Kabinetindən bildiriblər ki, görüşdə Azərbaycan-Belarus dövlətlərarası münasibətlərinin hərtərəfli inkişafından məmnunluq ifadə olunub, iki ölkənin prezidentlərinin fəal dialoqunun və birgə səylərinin bu inkişafı təmin edən əsas faktor olduğu bildirilib. Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın Bakıda keçirilmiş 15-ci iclasının əhəmiyyəti vurğulanıb.

Görüşdə Azərbaycan ilə Belarus arasında müxtəlif istiqamətlərdə, o cümlədən ticarət-iqtisadi, sənaye kooperasiyası, aqrar, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsi perspektivləri müzakirə olunub.

# Azərbaycan və Belarus arasında iqtisadi əməkdaşlığın genişləndirilməsinə dair Birgə Protokol imzalanıb



Oktyabrın 28-də Azərbaycan Respublikası və Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 15-ci iclası keçirilib. Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, iclasa Azərbaycan tərəfindən Baş nazirin müavini, Komissiyanın həmsədri Samir Şərifov, Belarus tərəfindən isə Baş nazirin müavini, Komissiyanın həmsədri Natalya Petkeviç rəhbərlik edib.

Tərəflər Azərbaycan və Belarus arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək bildiriblər ki, iki ölkə arasında strateji tərəfdaşlıq, dövlət başçıları – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko arasında formalaşmış qarşılıqlı etimad, səmimi siyasi dialoq və dostluq münasibətləri əsasında inkişaf edir. Qeyd olunub ki, münasibətlərin müqayisəli üstünlüyü məhz müxtəlif sahələr üzrə qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın genişlənməsində və yeni birgə layihələrin gerçəkləşdirilməsində özünü göstərir.

Komissiyanın fəaliyyətinin ötən dövr üzrə nəticələri nəzərdən keçirilib, 2024-2025-ci illəri əhatə edən əməkdaşlıq üzrə Yol Xəritəsinin icrası ilə bağlı müzakirələr aparılıb. Sənaye, kənd təsərrüfatı, maşınqayırma, şəhər təsərrüfatı, farmasevtika, peşə təhsili, nəqliyyat-logistika, ticarət və investisiya sahələrində konkret nəticələr və irəliləyişlər qeyd edilib.

Azad edilmiş ərazilərdə əməkdaşlıq çərçivəsində Ağdam rayonunun Qızıl Kəngərli kəndində Belarus tərəfi ilə birgə aqroşəhər layihəsi üzərində işlərin davam etdiyi, Baş planın təsdiqləndiyi və aqrar istehsalat klasterinin yaradılması üzrə işçi qrupun formalaşdırıldığı qeyd olunub.

Tərəflər peşə təhsili sahəsində əməkdaşlığı da mühüm istiqamət kimi dəyərləndiriblər. 2024–2025-ci illər üçün Birgə Fəaliyyət Planının icrasının davam etdiyini, Bakıda "Qida texnologiyası" ixtisası üzrə Belarus tədris modeli əsasında kadr hazırlığı həyata keçiriləcəyini vurğulayıblar.

İclasda iki ölkə arasındakı ticarət dövriyyəsinin dinamikası təhlil edilib. Bildirilib ki, 2024-cü ildə ticarət dövriyyəsi 42 faiz artaraq 506 milyon ABŞ dollarına çatıb. Bununla belə, tərəflər ticarət nomenklaturasının genişləndirilməsi, yeni məhsullar və xidmət qruplarının dövriyyəyə daxil edilməsi və tranzit-logistika imkanlarının daha fəal istifadəsini vacib hesab ediblər.

# 2 ölkə arasında ticarət nomenklaturasının genişləndirilməsi müzakirə edilib

Bakıda Azərbaycan Respublikası və Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 15-ci iclası keçirilib. İclasa Azərbaycan tərəfindən Baş nazirin müavini, Komissiyanın həmsədri Samir Şərifov, Belarus tərəfindən isə Baş nazirinin müavini, Komissiyanın həmsədri Natalya Petkeviç rəhbərlik edib.

İclasda iki ölkə arasındakı ticarət dövriyyəsinin dinamikası təhlil edilib.

Bildirilib ki, 2024-cü ildə ticarət dövriyyəsi 42 % artaraq 506 milyon dollara çatıb.

Bununla belə, tərəflər ticarət nomenklaturasının genişləndirilməsi, yeni məhsullar və xidmət qruplarının dövriyyəyə daxil edilməsi və tranzit-logistika imkanlarının daha fəal istifadəsini vacib hesab ediblər.

# 2025-ci ildə Azərbaycanda 200 liftin modernləşdirilməsi həyata keçirilib

"Azərbaycan və Belarus prezidentlərinin həyata keçirdikləri uğurlu siyasətin nəticəsində bu gün dövlətlərimiz arasındakı əlaqələr bütün sahələr üzrə yüksələn xətlə inkişaf edir".

Bu sözləri Belarusun Baş nazirinin müavini Natalya Petkeviç Bakıda keçirilən Azərbaycan-Belarus iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 15-ci iclasında çıxışı zamanı deyib.

O bildirib ki, 2004-cü ildən fəaliyyət göstərən hökumətlərarası komissiya dövlətlərimiz arasında iqtisadi, ticarət, nəqliyyat, mədəniyyət, idman və digər sahələrdə əlaqələrin inkişafına böyük təkan verib.

"Komissiyanın fəaliyyətində ötən



dövr ərzində uğurlu nəticələr əldə edilib. Bu gün 2024-2025-ci illəri əhatə edən əməkdaşlıq üzrə Yol Xəritəsinin icrası ilə bağlı müzakirələr aparılacaq. Sənaye, kənd təsərrüfatı, maşınqayırma, şəhər təsərrüfatı, əczaçılıq, peşə təhsili, nəqliyyat-logistika, ticarət və investisiya sahələrində konkret nəticələr və irəliləyişlər var. Gəncə Avtomobil Zavodunda Belarus tərəfi ilə birlikdə kənd təsərrüfatı və xüsusi təyinatlı texnikanın yığılması davam edir. Bununla yanaşı, Belarusla lift istehsalı və təchizatı sahəsində uzunmüddətli əməkdaşlıq çərçivəsində Azərbaycanda "Moqilyovliftmaş" ilə lokal istehsalın genişləndirilməsi üzrə də işlər davam etdirilir və 2025-ci ildə 200 liftin modernləşdirilməsi, quraşdırılması həyata keçirilib. Belarusun tikinti şirkətləri Azərbaycanın işğaldan azad olunan ərazilərində aparılan genişmiqyaslı tikinti və quruculuq işlərində iştirak etməkdə maraqlıdır. Həmin ərazilərdə birgə tikinti materialları istehsalı müəssisələrinin açılması qarşılıqlı əlaqələrimizin inkişafına böyük təkan verə bilər", - deyə Natalya Petkeviç nəzərə çatdırıb.

# Dayanıqlı bioyanacaqlar COP30-un əsas mövzularından biri olacaq

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru Françesko La Kamera bu il Braziliyanın Belem şəhərində keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə 30-cu Tərəflər Konfransı — COP30-da dayanıqlı bioyanacaq istifadə hədəfləri və enerji keçidinin sosial aspektlərinin diqqət mərkəzində olacağını bildirib.

AZƏRTAC "Reuters" agentliyinə istinadla xəbər verir ki, noyabrın 10-21 tarixlərində keçiriləcək COP30 çərçivəsində ölkələr yenilənmiş milli iqlim öhdəliklərini təqdim etməli və əvvəlki sammitlərdə razılaşdırılmış bərpa olunan enerji hədəfləri üzrə irəliləyişləri qiymətləndirməlidirlər. La Kamera yekun bəyannamədə hədəfə çevriləcək bioyanacaq öhdəliyini gözləyir. O qeyd edib ki, yekun bəyanatda isə 2035-ci ilədək bioyanacaq istehsalının dörd dəfə artırılması və ya enerji balansında davamlı aviasiya yanacağının payı ilə bağlı konkret hədəf yer ala bilər. O bildirib ki, IRENA COP30 üçün bioyanacaq hesabatı hazırlayıb və bioyanacaq istehsalını təşviq etmək üçün Beynəlxalq Mülki Aviasiya Təşkilatı ilə razılaşma imzalayıb. Onun sözlərinə görə, konfransda icmaların bərpa olunan enerji layihələrində necə iştirak edə biləcəyi müzakirə olunacaq.




IRENA-nın hesablamalarına əsasən, 2030-cu ilədək qlobal bərpa olunan enerji hədəfi əvvəlkindən daha əlçatan görünür. Hazırda 11,2 teravatlıq məqsədə çatmaq üçün proqnozlaşdırılan çatışmazlıq 0,9 teravat səviyyəsindədir ki, bu da ötənilki 1,49 teravat proqnozundan azdır.

# ADY və Çinin Sian Limanı arasında yeni Anlaşma Memorandumu imzalanıb

AZCON Holding şirkətlərindən olan "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov Çin Xalq Respublikasının Sian şəhərinin meri Ye Niu Pinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirib.

ADY-dən verilən məlumata görə, görüşdə Prezident İlham Əliyevin 2025-ci ilin aprel ayında Çinə səfərinin Azərbaycan – Çin əlaqələrinin inkişafında mühüm mərhələ olduğu vurğulanıb.

Qeyd olunub ki, səfər zamanı iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat, həmçinin beynəlxalq multimodal daşımalar və "Kəmər və Yol Təşəbbüsü"nün birgə təşviqi haqqında imzalanmış sazişlər nəqliyyat və logistika sektorunda əməkdaşlığın daha da genişləndirilməsi üçün möhkəm zəmin yaradıb.

Həmçinin Orta Dəhlizin inkişafı üzrə ADY və Çin nəqliyyat-logistika şirkətləri və limanları arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, bu əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Bildirilib ki, Orta Dəhlizin imkanlarının genişləndirilməsi və dəhlizlə yük axınlarının artırılması məqsədilə ADY və Çinin Sian Limanı sıx əməkdaşlıq edir. Bu əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində iyulda ADY-nin Sian Limanında nümayəndəsi təyin edilib və illik yükaşırma gücü 20,000 TEU olan konteyner meydançası açılıb. Eyni zamanda ADY nümayəndələri sürətli məlumat mübadiləsi üçün Sian Limanının əməliyyat sisteminə girişlə təmin edilib.

Görüş çərçivəsində "Azərbaycan Dəmir Yolları" QSC və Çinin Sian Limanı arasında Anlaşma Memorandumu imzalanıb.

# Böyük Britaniya ilə ticarət dövriyyəsi artıb

Cari ilin yanvar-sentyabr aylarında Azərbaycan və Böyük Britaniya arasında ticarət əməliyyatlarının həcmi 955,5 milyon ABŞ dolları təşkil edib.

Trend Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, bu göstərici 2024-cü ilin eyni dövrünün göstəricisi ilə müqayisədə 359,7 milyon dollar və ya 60,4 faiz çoxdur.

Hesabat dövründə Böyük Britaniya ilə ticarət əməliyyatlarının həcm Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 1,73 faizini təşkil edib. Beləcə, Böyük Britaniya Azərbaycanın ən çox qarşılıqlı ticarət əməliyyatları həyata keçirdiyi ölkələrin sırasında yeddinci yer tutub.

Belə ki, cari ilin yanvar- sentyabr aylarında Azərbaycandan Böyük Britaniyaya 241,2 milyon dollar dəyərində məhsul ixrac olunub. Bu 2024-cü ilin analoji dövrünün göstəriciləri ilə müqayisəd 159 milyon dollar və ya 39,7 faiz azdır. Digər yandan, Böyük Britaniyadan Azərbaycana idxal isə sözügedən müddət ərzində 714,3 milyon dollar həcmində olub ki, bu da illik ifadədə 518,7 milyon dollar və ya 3,7 dəfə çoxdur.

## BANK XƏBƏRLƏRİ

# Son 5 ildə Azərbaycan sığorta bazarı böyüyüb

"Son 5 ildə Azərbaycan sığorta bazarı orta hesabla 10 faiz böyüyüb". Bu barədə Mərkəzi Bankın Sığorta fəaliyyətinin tənzimlənməsi departamentinin direktoru Pənah Bənnayev "Türk Dövlətləri InsurTech Sammiti 2025" tədbirində çıxışı zamanı deyib.

O qeyd edib ki, bu artım göstəriciləri həyat və qeyri-həyat sığorta şirkətləri üzrə fərqli templərlə müşahidə olunub: "Xüsusilə son illərdə həyat sığorta şirkətlərinin aktivlərində daha yüksək artım tempi qeydə alınıb. Hazırda sığorta bazarında yığımların əsas hissəsi həyatın yaşam sığortası (investisiyayönümlü məhsul), avtonəqliyyat vasitələrinin icbari sığortası və icbari tibbi sığorta məhsulları üzrə formalaşır".

# Bankların kredit portfelinin artım tempi sürətlənib

Bankların kredit portfelinin (müştərilərə verilmiş kreditlər) aylıq artım tempi 0.7%-dən 2%-ə yüksəlib.

2025-ci ilin sentyabr ayında bankların kredit portfeli (müştərilərə verilmiş kreditlər) 2% və ya 571.4 milyon manat artaraq 30 sentyabr 2025-ci il tarixində 29 milyard 276.3 milyon manata çatıb.

Marja.az xəbər verir ki, bu, Azərbaycan Mərkəzi Bankının Statistik bülleteninin sentyabr sayında bildirilir.

30 sentyabr 2025-ci il tarixinə bankların kredit portfelinin strukturu:

ı) biznes kreditləri – 53.1% (15 milyard 544.6 milyon manat);

ıı) istehlak kreditləri – 31.4% (9 milyard 183.5 milyon manat)

ııı) ipoteka kreditləri – 15.5% (4 milyard 548.2 milyon manat).

2025-ci ilin avqust ayında iyul ayının sonu ilə müqayisədə bankların kredit portfeli 0.7% və ya 206.7 milyon manat artaraq 31 avqust 2025-ci il tarixində 28 milyard 704.9 milyon manat olmuşdu.

31 avqust 2025-ci il tarixinə bankların kredit portfelinin strukturu:

ı) biznes kreditləri – 52.6% (15 milyard 91.8 milyon manat);

ıı) istehlak kreditləri – 31.7% (9 milyard 114.5 milyon manat)

ııı) ipoteka kreditləri – 15.7% (4 milyard 498.6 milyon manat).

2025-ci ilin iyul ayında iyun ayı ilə müqayisədə bankların kredit portfeli 0.1% və ya 26 milyon manat artaraq 31 iyul 2025-ci il tarixində 28 milyard 498.2 milyon manat olmuşdu.

# Bankların xalis mənfəəti 10 faizə yaxın artıb

2025-ci ilin yanvar-sentyabr aylarında (9 ayda) banklar 910.7 milyon manat xalis mənfəət, 1 milyard 373.2 milyon manat məbləğində əməliyyat mənfəəti əldə etmişlər. Cari ilin 9 ayında banklar tərəfindən ümumilikdə 214.5 milyon manat məbləğində mənfəət vergisi ödənilmişdir.

Bu barədə Azərbaycan Mərkəzi Bankının Statistik bülleteninin sentyabr sayında bildirilir.

Ötən ilin eyni dövrü ilə müqayisədə bankların cəmi xalis mənfəəti 81,1 milyon manat və ya 9,8%, əməliyyat mənfəəti 104,5 milyon manat və ya 8,3% artıb.

Xatırladaq ki, 2024-cü ilin yanvar-sentyabr aylarında banklar 829.6 milyon manat xalis mənfəət, 1 milyard 268.7 milyon manat məbləğində əməliyyat mənfəəti əldə etmişdilər.

Cari ilin 9 ayında banklar tərəfindən ümumilikdə 190.6 milyon manat məbləğində mənfəət vergisi ödənilmişdi.

# Milli Məclisdə “Dövlət suverenliyinin iqtisadi əsasları və iqtisadi müstəqillik” mövzusunda elmi-praktik konfrans keçirilib

***Oktyabrın 22-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli”nə həsr edilən “Dövlət suverenliyinin iqtisadi əsasları və iqtisadi müstəqillik” mövzusunda konfrans keçirilib.***

Komitə sədri Azər Əmiraslanov tədbiri açaraq, elmi-praktik konfransın keçirilməsi ilə bağlı təşəbbüsü dəstəklədiyinə görə Milli Məclisin sədri Sahibə Qafarovaya rəhbərlik etdiyi komitənin üzvləri adından təşəkkürünü ifadə edib.

O, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, müzəffər ordumuzun rəşadəti nəticəsində Azərbaycanın Vətən müharibəsində qələbə qazanaraq, öz dövlət suverenliyini bərpa etdiyini, regionda yeni reallıqlar yaratdığını bildirib. Komitə sədri suverenliyin iqtisadi əsaslarının möhkəmləndirilməsinin qarşıda duran mühüm vəzifələrdən biri olduğunu deyib. Ölkəmizdə həyata keçirilən dövlət siyasətinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayaraq, bu siyasətin siyasi müstəqilliklə iqtisadi müstəqilliyin vəhdətindən ibarət olduğunu qeyd edib. Ardıcıl, davamlı, müstəqil dövlət siyasətinin aparılması üçün iqtisadi əsasların vacibliyindən danışıb.

Sonra tədbirdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Ziyad Səmədzadə çıxış edib. O, bu gün Azərbaycan dövlətinin dünyada mövqelərinin möhkəmləndirilməsinin, ölkəmizin qlobal təhdidlərə qarşı mübarizəsinin, milli maraqlara uyğun siyasətin həyata keçirilməsinin,





hərtərəfli tərəqqinin təməlində Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strategiyanın dayandığını, iqtisadi müstəqilliyimizin formalaşmasında onun əvəzsiz rolunu vurğulayıb. Heydər Əliyevin adı ilə bağlı olan “Əsrin müqaviləsi”nin davamlı inkişaf, ölkə iqtisadiyyatının gücləndirilməsi baxımından mühüm əhəmiyyətindən bəhs edib. İqtisadi təhlükəsizliyin təmin edilməsi ilə bağlı fikirlərini açıqlayıb.

Konfransda çıxış edən Auditorlar Palatasının sədri Vahid Novruzov bildirib ki, iqtisadi müstəqilliyin mahiyyəti dövlətin müstəqil iqtisadi siyasətin həyata keçirilməsində, təbii sərvətlərdən səmərəli istifadənin təmin edilməsində rolunu nəzərdə tutur. O, iqtisadi müstəqilliyin qarşısında duran məsələlərin dövlət quruculuğu prosesində əhəmiyyətindən danışıb. Palata sədri qeyd edib ki, müstəqilliyin ilk illərində iqtisadi müstəqilliyin əsas qayəsini neft strategiyası, müxtəlif sahələrə aparılan islahatlar, özəlləşdirmə təşkil edirdisə, müasir dövrdə onun məqsədləri qeyri-neft sektorunun inkişafı, ixracın diversifikasiyası, rəqəmsal iqtisadiyyat, “yaşıl enerji”, beynəlxalq əməkdaşlıq, dayanıqlı inkişaf, maliyyə sabitliyi və şəffaflığın təmin edilməsi kimi amillərdən ibarətdir. O, Azərbaycanın dövlət suverenliyinin tam bərpa olunduqdan sonra ölkənin iqtisadi potensialının daha da gücləndiyini söyləyib.

Sonra konfransda parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli mövzu ilə bağlı fikirlərini açıqlayıb.

Daha sonra konfransda çıxış edən iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov bildirib ki, müstəqilliyin ilk illərində Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində qısa müddət ərzində atəşkəsə nail olundu. Heydər Əliyev “iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” ideyasına insanları inandırdı və sağlam qüvvələri öz ətrafında birləşdirdi. “Əsrin müqaviləsi” ilə Azərbaycan öz təbii resurslarını iqtisadi gücə çevirməyə başladı. O dövrdə xarici investisiyaların cəlb olunması, yeni sənaye infrastrukturunun yaradılması, kənd təsərrüfatının dirçəldilməsi Azərbaycanın iqtisadi müstəqilliyini təmin edəcək əsas amillər idi. Nazir müavini qeyd edib ki, hazırda Heydər Əliyev kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi, siyası, hərbi islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafı və makroiqtisadi sabitlik təmin olunub, torpaqlarımız işğaldan azad edilib, dövlət suverenliyimiz və müstəqiliyimiz tam bərpa edilib.

***Tədbirdə çıxış edən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, müstəqilliyin ilk illərində Azərbaycan ciddi iqtisadi çağırışlarla üz-üzə qalıb. Lakin Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə bu sahədə mühüm dönüş əldə edildi və Ulu Öndərin müdrik siyasi iradəsi ilə müstəqil Azərbaycanın iqtisadi suverenliyinin təməlləri yaradıldı.***

Konfransda Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Mərkəzi Bankın sədr müavini Əli Əhmədov, Maliyyə nazirinin müavini Azər Bayramov, Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov, Milli məclisin deputatları Günay Ağamalı, Əli Məsimli, Asif Əsgərov, Tahir Mirkişili, Rizvan Nəbiyev, Mübariz Qurbanlı, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Dövlət Neft Fondunun icraçı direktorunun müavini Bəhruz Bəhramov, Dövlət Gömrük Komitəsi sədrinin müavini Güloğlan Muradlı çıxış ediblər.

# Audit dövlətin maraqlarının müdafiəçisi kimi

***Maliyyə informasiyasının etibarlılığı idarəetmədə düzgün qərarların qəbuluna zəmin yaratmaqla iqtisadi inkişafda və şəffaflığın artırılmasında böyük əhəmiyyət kəsb edir. Bu isə öz növbəsində, bir tərəfdən keyfiyyətli maliyyə hesabatlılığının aparılmasını, digər tərəfdən isə təkmil maliyyə nəzarətinin tətbiqini zəruri edir. Düzgün hesabatlılıq və nəzarət, o cümlədən audit , biznes mühitinin münbitləşməsinə zəmin yaratmaqla qanunvericiliyin pozulmasına qarşı mübarizənin gücləndirilməsinə də müsbət təsir göstərir.***

Əslində audit dövlət-vətəndaş münasibətlərində etimad körpüsüdür. Çünki şəffaf audit hesabatları və ictimaiyyətə təqdim olunan obyektiv məlumatlar insanların dövlətə inamını möhkəmləndirir, qanunsuzluqların qarşısının alınmasına zəmin yaradır. Dövlətin maliyyə maraqlarının qorunması, resursların səmərəli idarə edilməsi, korrupsiya risklərinin minimuma endirilməsi və iqtisadi sabitliyin təmin olunması baxımından auditin rolu danılmazdır.

Nəticə etibarilə audit yalnız maliyyə nəzarəti aləti deyil, həm də cəmiyyətin strateji maraqlarının müdafiəçisi, iqtisadi təhlükəsizliyin təminatçısı və ictimai etimadın dayağıdır. Müasir çağırışlar fonunda audit institutlarının transformasiyası, beynəlxalq standartlara uyğunlaşdırılması və müstəqilliyinin qorunması dövlətin və mülkiyyətçilərin maraqlarının etibarlı müdafiəsinə xidmət edən başlıca istiqamətlərdən biri kimi öz mövqeyini getdikcə genişləndirməkdədir.

Son illərdə ölkəmizdə mühasibat uçotunun və hesabatlılığın islahatına, auditin və maliyyə nəzarətinin beynəlxalq standartlara uyğun qurulmasına xüsusi diqqət yetirilməsi də müəyyən mənada bu amillə əlaqədardır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək: «Biz bütün maliyyə sistemində şəffaflığı təmin etməliyik və belə olan halda, Azərbaycanda həm korrupsiyanın aradan qaldırılması məsələsi öz həllini tapa bilər, həm də xərclər Azərbaycanın iqtisadiyyatının inkişafına daha məqsədyönlü şəkildə xidmət göstərə bilər».

Auditor xidməti haqqında mövcud qanunvericilik dövlət orqanlarına öz səlahiyyətləri daxilində təsərrüfat subyektlərinin fəaliyyətini yoxlamasını istisna etmir.

Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə auditor xidməti göstərərkən müəyyən etdikləri pozuntu və nöqsanlar haqqında onlar qarşısında məsələ qaldırmaq, auditin keçirilməsinə müqavilə əsasında başqa auditorları cəlb etmək, yoxlanılan təsərrüfat subyekti tərəfindən audit üçün lazım olan sənədlərin təqdim edilməməsi halında audit yoxlamasını keçirməkdən imtina etmək hüququna malikdirlər.

***Eyni zamanda auditorlar auditin aparılmasında Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə hökmən riayət etməli, auditor yoxlamalarını və digər auditor xidmətlərini keyfiyyətli həyata keçirməli, “Auditor xidməti haqqında” Qanunun 18-ci maddəsində göstərilmiş hallara görə auditin aparılmasında iştirakının qeyri-mümkünlüyü barədə sifarişçini - səlahiyyətli dövlət orqanını və ya Auditorlar Palatasını dərhal məlumatlandırmalıdır.***

Auditor sifarişçinin mühasibat uçotunu və hesabatlarını qanunvericiliyə uyğunluq baxımından yoxlamalı, aşkar edilən pozuntular barədə rəhbərliyə məlumat verməlidir. Audit zamanı əldə olunan məlumatlar məxfi saxlanmalı, sənədlərin qorunması təmin edilməlidir. Zəruri hallarda auditor sifarişçiyə qanunvericiliyin tələbləri, tərəflərin hüquq və vəzifələri, habelə rəyin əsaslandığı normativ aktlar barədə məlumat verməlidir.

Bundan əlavə, auditor mülki məsuliyyətin icbari sığortasını bağlamalı, cinayət yolu ilə əldə edilmiş vəsaitlərin leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı qanunların tələblərinə əməl etməli, qanunla nəzərdə tutulan hallarda aşkar olunmuş pozuntular barədə səlahiyyətli orqanlarını məlumatlandırmalıdır.

Auditorlar və auditor təşkilatları öz vəzifələrini lazımınca yerinə yetirmədikdə Azərbaycan Respublikası qanunvericiliyinə və sifarişçi ilə bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq əmlak məsuliyyətinə cəlb edilə bilərlər.



**Elxan Qəmbərov, Azərbaycan Respublikası Auditorlar Palatasının Dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə iş şöbəsinin müdiri**

Auditor xidməti göstərən fiziki və hüquqi şəxslər mülki məsuliyyətin icbari sığortası müqaviləsinin bağlanmamasına görə qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Yuxarıda sadalanan hüquq və vəzifələr çərçivəsində auditor fəaliyyəti həm də dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq şəraitində həyata keçirilir. Auditorlar Palatasının bu istiqamətdə səlahiyyətli dövlət qurumları ilə əlaqələri hər il dövlət sifarişləri formasında davam etdirilir. Auditorlar Palatasının bu istiqamətdə səlahiyyətli dövlət qurumları ilə əlaqələri hər il dövlət sifarişləri formasında davam etdirilir. 2025-ci ilin yanvar-sentyabr ayları ərzində daxil olmuş 64 müraciət əsasında yoxlamalar aparılmış, bu müraciətlərin 50-i icra edilmiş, 14-ün icrası isə davam etdirilir. Bu müraciətlər Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Bakı Şəhər Prokurorluğu, Binəqədi Rayon Prokurorluğu, Goranboy Rayon Prokurorluğu, Daxili İşlər Nazirliyi Baş İstintaq və Təhqiqat idarəsi, Bakı Nərimanov Rayon Prokurorluğu, Xətai Rayon Prokurorluğu, Xəzər Rayon Prokurorluğu, Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası, Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyası, Azərbaycan Respublikası Gəncə Apellyasiya Məhkəməsi, Bakı Kommersiya Məhkəməsi, Şəki Kommersiya Məhkəməsi, Nizami Rayon Məhkəməsi, Nəsimi Rayon Məhkəməsi, Nərimanov Rayon Məhkəməsi, Yasamal Rayon Məhkəməsi, Göyçay Rayon Məhkəməsi, Qaradağ Rayon məhkəməsi, Ədliyyə Nazirliyi Nərimanov Rayon İcra Şöbəsi, Yasamal Rayon İcra Şöbəsi və Səbail Rayon İcra Şöbəsi tərəfindən daxil olmuşdur.

Bu fəaliyyətlərin nəticələrinin təhlili göstərir ki, bəzi qurumlarda mühasibat uçotu və maliyyə hesabatlarının aparılmasında sistemli çatışmazlıqlar qalmaqdadır. Maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına tam uyğun tərtib olunmaması, gəlir və xərclərin düzgün təsnifləşdirilməməsi, etik və şəffaflıq prinsiplərinin pozulması hələ də rast gəlinən hallardandır.

Eyni zamanda, büdcə vəsaitlərinin təyinatı üzrə xərclənməməsi, əsaslandırılmamış ödənişlərin edilməsi, daxili nəzarət mexanizmlərinin formal xarakter daşıması hələ də müşahidə edilir.

***Qeyd olunanlarla yanaşı, aparılmış auditlərin nəticəsinin keyfiyyətsiz hesab edilməsinə və Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsinə görə səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak edən auditorlar barəsində intizam və tənbeh tədbirləri görülmüş, bir sıra auditorların adı “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak edəcək auditorların siyahısı”ndan çıxarılmışdır.***

Auditorlar Palatasının dövlətin mənafeyinin qorunmasında rolu “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının qanununda təsbit edilmişdir. Həmin qanuna uyğun olaraq ölkədə auditor xidmətinin dövlət tənzimlənməsini təşkil etmək, bu sahədə olan və Azərbaycan Respublikasında auditor xidmətinin inkişafına və təkmilləşdirilməsinə yönəlmiş normativ aktların layihələrini, tədbirlər sistemini hazırlamaq, dövlətin, təsərrüfat subyektlərinin və auditorların (auditor təşkilatlarının) mənafelərini müdafiə etmək, öz fəaliyyətində bu Qanundan, digər qanunvericilik və normativ-hüquqi aktlardan irəli gələn tələblərə auditorlar (auditor təşkilatları) tərəfindən riayət edilməsinə nəzarət etmək məqsədilə Azərbaycan Respublikasının Auditorlar Palatası yaradılmışdır.

Azərbaycan Respublikasında auditin dövlət maraqlarının müdafiəçisi kimi mövqeyi illər ərzində formalaşmış qanunvericilik bazası, beynəlxalq standartlara inteqrasiya və ölkə Prezidentinin dəstəyi sayəsində mümkün olmuşdur.

Bu proses yalnız maliyyə nəzarətinin təkmilləşdirilməsinə deyil, həm də iqtisadi təhlükəsizliyin təmininə, ictimai etimadın möhkəmləndirilməsinə və şəffaf idarəetmə prinsiplərinin bərqərar olmasına xidmət etmişdir. Müasir çağırışlar fonunda audit sahəsində aparılan islahatların ardıcıl davam etdirilməsi, innovativ yanaşmaların tətbiqi və peşəkar kadr potensialının gücləndirilməsi isə dövlətin strateji maraqlarının etibarlı müdafiəsini və Azərbaycanın dayanıqlı inkişafını təmin edən əsas istiqamətlərdən biri kimi xüsusi əhəmiyyət kəsb edir.

Beləliklə, audit yalnız maliyyə hesabatlarının düzgünlüyünün yoxlanılması deyil, eyni zamanda dövlətin iqtisadi təhlükəsizliyinin təmin olunması, cəmiyyətin dövlətə olan etimadının möhkəmləndirilməsi və şəffaf idarəetmənin gerçəkləşdirilməsi üçün strateji əhəmiyyət daşıyan alətdir. Azərbaycanın bu sahədə formalaşdırdığı hüquqi baza, həyata keçirilən islahatlar və beynəlxalq standartlara inteqrasiya təcrübəsi ölkəmizdə auditin dövlət maraqlarının etibarlı müdafiəçisi kimi çıxış etməsinə imkan yaratmışdır. Gələcəkdə də audit institutlarının müstəqilliyinin qorunması, innovativ yanaşmaların tətbiqi və peşəkar potensialın artırılması dövlətimizin iqtisadi dayanıqlığının və davamlı inkişafının əsas təminatçılarından biri olacaqdır.

# В Баку обсуждена динамика товарооборота между Азербайджаном и Беларусью

В ходе 15-го заседания Совместной межправительственной комиссии по экономическому сотрудничеству между Азербайджаном и Беларусью в Баку была проанализирована динамика товарооборота между двумя странами.
Было отмечено, что в 2024 году товарооборот увеличился на 42% и достиг 506 миллионов долларов.
Однако стороны посчитали важным расширение товарной номенклатуры, введение в оборот новых групп товаров и услуг, а также более активное использование транзитных и логистических возможностей.
Заседание проводили заместитель премьер-министра Азербайджана и сопредседатель комиссии Самир Шарифов и заместитель премьер-министра Беларуси и сопредседатель комиссии Наталья Петкевич.

# ЕС и Азербайджан нацелены на конструктивный диалог и укрепление партнерства

Я настроена очень оптимистично в отношении будущего и развития отношений между Европейским союзом и Азербайджаном.
Об этом в субботу Trend заявила посол Европейского союза в Азербайджане Марияна Куюнджич в кулуарах выставки «Образование в Европе» в Баку.



Она подчеркнула, что обе стороны нацелены на конструктивный диалог и дальнейшее укрепление партнерства. «Мы все смотрим вперёд и надеемся на хорошее будущее для отношений между ЕС и Азербайджаном», - добавила посол.
Говоря о выставке «Образование в Европе», она отметила, что в мероприятии принимают участие 30 европейских университетов из десяти стран-членов ЕС, а также азербайджанские вузы ADA и UFAZ.
«Мы очень рады, что европейские университеты приехали в Баку, чтобы представить свои образовательные программы. Надеемся, что азербайджанские студенты найдут возможности обучения в Европе привлекательными», - сказала Марияна Куюнджич.
По ее словам, выставка проходит в рамках программы Erasmus+, открытой для всего мира, включая Азербайджан, и предоставляющей молодежи широкие возможности для получения образования и академических обменов.

# Зангезурский коридор увеличит пропускную способность Среднего коридора

Зангезурский коридор («Маршрут Трампа — TRIPP») станет важным фактором в увеличении пропускной способности Среднего коридора.
Об этом заявил министр транспорта и инфраструктуры Турции Абдулкадир Уралоглу в своем выступлении на турецком телевидении.
По словам министра, наряду с мерами по полному использованию потенциала железной дороги Баку–Тбилиси–Карс (БТК), предпринимаются необходимые шаги для открытия нового маршрута, который соединит западные регионы Азербайджана с Нахчыванской Автономной Республикой.
Уралоглу отметил, что уже началось строительство 224-километровой железной дороги от Карса до границы с НахчыванОм. Он подчеркнул, что, в отличие от линии БТК, новая железная дорога Карс–Дилуджу будет двухпутной, что позволит существенно увеличить объем грузоперевозок.
Министр также добавил, что в Азербайджане продолжаются работы по восстановлению и модернизации транспортной инфраструктуры, и большая часть этих проектов уже успешно реализована.

# Минэнерго Азербайджана о расширении географии поставок газа по TAP

Расширение Трансадриатического газопровода (TAP) позволит транспортировать дополнительные объемы газа, что, в свою очередь, приведет к дальнейшему расширению сети поставок.
Об этом в ответ на запрос Trend сказали в министерстве энергетики Азербайджана в связи с предстоящим пятилетием начала коммерческой эксплуатации TAP.
«За пятилетний период TAP, подтвердив стратегическую роль Азербайджана в укреплении энергетической безопасности Европы и диверсификации поставок газа, укрепил репутацию нашей страны как надежного энергетического партнера и открыл широкие возможности для интеграции на новые рынки.
Благодаря TAP Азербайджан стал четвертым по величине поставщиком газа в Европейский союз, транспортируемого по трубопроводам, с долей 7%. На сегодняшний день по TAP в европейские страны поставлено 51,2 миллиарда кубометров газа, из которых 42,9 миллиарда кубометров направлены в Италию, 4,9 миллиарда — в Грецию и 3,4 миллиарда — в Болгарию. За 9 месяцев текущего года по TAP в целом поставлено 8,5 миллиарда кубометров газа, из них 7 миллиардов кубометров — в Италию, 0,8 миллиарда — в Грецию и 0,7 миллиарда — в Болгарию», - сказали в ведомстве.
Как отметили в министерстве, к странам, уже получающим природный газ по TAP и проявляющим интерес к увеличению объемов поставок, относятся Италия, Болгария и Сербия.

# Экономика Азербайджана получает больше кредитов

По состоянию на 1 октября 2025 года общий объем кредитных вложений в экономику Азербайджана, включая банковский и небанковский секторы, составил 31 миллиард 41,8 миллиона манатов. Как сообщает Центральный банк Азербайджанской Республики, этот показатель на 6% выше по сравнению с началом текущего года.
В годовом выражении по сравнению с 1 октября 2024 года объем кредитных вложений увеличился на 9,3%, или на 2 миллиарда 637,2 миллиона манатов.



# «Беларусь и Азербайджан сотрудничают по широкому кругу направлений»



Об этом заявила заместитель премьер-министра Натальи Петкевич по итогам 15-го заседания межправительственной белорусско-азербайджанской комиссии по торгово-экономическому сотрудничеству, которая прошла в Баку, сообщает БЕЛТА со ссылкой на пресс-службу правительства.
По словам Натальи Петкевич, Беларусь и Азербайджан сотрудничают по широкому кругу направлений. Межправкомиссия готовилась достаточно долго. Стороны, начиная с августа, рассмотрели значительное количество вопросов. Достигнуты серьезные результаты. "У нас достаточно хорошее производство лифтов здесь, вновь открывшееся. Есть сборочное производство тракторов, большие проекты по промышленной кооперации, сборке пожарно-спасательной техники и техники на базе шасси МАЗ. Коллеги заинтересовались некоторыми новыми позициями", - рассказала вице-премьер.
В качестве примера направлений для дальнейшего сотрудничества она привела передвижные фельдшерские пункты на базе шасси МАЗ, "ресторан на колесах", и другие мобильные объекты торгового обслуживания. Велись конкретные переговоры и о производстве холодильников, бытовой техники. Возможно, будут востребованы телевизоры. "В Азербайджане идут по пути создания национальных производств, поэтому ведем речь о локализации и создании совместных производств", - пояснила вице-премьер.
Также Беларусь заинтересована в работе на новых территориях. Компетенциям белорусских специалистов доверяют. "Главы государств поставили задачу о том, чтобы здесь был построен агрогородок. Но это не просто строительство населенного пункта, а населенного пункта с агропромышленной инфраструктурой. Поэтому сегодня мы работаем в плане проектирования. Договор уже заключен, наш проектный институт работает. Мы претендуем на то, чтобы стать генеральным подрядчиком. Я надеюсь, что мы эту лицензию получим", - сказала Наталья Петкевич.
Еще одно направление - строительство метро в Баку. В Азербайджане считают, что это очень удобный способ передвижения. "Им очень интересен наш опыт, тем более когда-то глава нашего государства сохранил компетенции в плане строительства метро. Метро строится постоянно в нашей стране. Мы тоже заявили о том, что хотели бы поделиться своим опытом и поучаствовать. И несмотря на то, что уже есть выигравшая иностранная компания, у нас есть шанс взять долю этого проекта и себе", - проинформировала Наталья Петкевич.
Также обсуждалось создание совместного производства фармакологической продукции. "На активной стадии совместное производство ветеринарных препаратов. По очень большому спектру позиций мы идем либо на завершающей стадии договоренности. Мы все задачи, которые главы государств и главы правительств перед нами поставили, должны выполнить.
В заседании Межправкомиссии приняли участие послы Дмитрий Пиневич и Магеррам Алиев.

**(Публикация Посольства Беларуси в Азербайджане)**

# *Лукашенко хочет сделки «все на все» с Западом*

Беларусь готова вести с Евросоюзом и США переговоры о соглашениях в рамках глобальных сделок. Об этом заявил президент республики Александр Лукашенко на III Минской международной конференции по евразийской безопасности.
«Нужно договариваться, например в рамках глобальной сделки. Подход президента США (Дональда) Трампа «все на все» мы можем обсуждать и с США, и с Европой, как и любая другая страна», – сказал белорусский лидер.
Лукашенко подчеркнул, что Беларусь способна реагировать на попытки западных соседей установить военное преимущество на ее границах или оказывать давление иными способами, однако принципиально не стремится к конфронтации.
«Мы понимаем, что попытки создать подавляющее военное превосходство на наших границах, подорвать нашу экономику и постоянное провоцирование социальных потрясений – это способы подчинить Минск чужой воле. Будем, как сможем, отвечать. У нас есть свои возможности. У нас есть опора в лице братской России. Но мы принципиально не ищем конфронтации», – указал он.
Лукашенко также прокомментировал решение Литвы закрыть границу с Беларусью.
«И повод придумали абсурдный — воздушные шары. Даже для такой мелкой страны, как Литва, это мелко», – сказал белорусский президент.
При этом он указал, что готов извиниться, если действительно виноват в инциденте с метеозондами с контрабандой в Литве.

# «Новый золотой век» Америки и Японии

Президент США Дональд Трамп и премьер-министр Японии Санаэ Такаити подписали соглашение «На пути к новому золотому веку американо-японского альянса», сообщил Белый дом.
«Лидеры двух стран с удовлетворением отметили быстрые и продолжительные усилия обеих стран в этом направлении и подтвердили свою твердую приверженность осуществлению этого важного соглашения», - говорится в сообщении.
Белый дом отметил, что этот документ «поможет обеим странам укрепить экономическую безопасность, способствовать экономическому росту и тем самым постоянно вести к глобальному процветанию». Лидеры двух стран поручили соответствующим министрам и секретарям предпринять дальнейшие шаги для его реализации. Кроме того, стороны подписали рамочную программу об обеспечении поставок важнейших полезных ископаемых и редкоземельных металлов за счет добычи и переработки.
После того как лидеры подписали документы о «новом золотом веке» отношений между странами, а также меморандум о взаимопонимании относительно стратегических инвестиций, премьер-министр Японии объявила, что выдвинет кандидатуру президента США Дональда Трампа на Нобелевскую премию мира, передает Reuters. «За такой короткий промежуток времени мир стал более спокойным», — сказала Такаити, добавив, что была впечатлена и вдохновлена Трампом. Дональд Трамп сообщил, что Япония сделала большой заказ на получение американской военной техники.

# “Insurtech” bazarının qiyməti 35 milyard dollardır



“Hazırda dünyada “Insurtech” bazarının qiyməti təxminən 35 milyard dollardır”.

Bunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı “Türk Dövlətləri InsurTech Sammiti 2025” tədbirində çıxışı zamanı bildirib.

O bildirib ki, 2034-cü ilədək bu rəqəmin 610 milyard dollara çatması gözlənilir.

*“Proses çox sürətlə gedir. Bu prosesi sürətlə aparan birincisi innovator arxetipidir. Burada yeni texnologiyalar həm biznes modeli, həm də sığorta yanaşmasını sürətlə dəyişir. Biz yeniliklərə vaxtında adaptasiya olmasaq, rəqabətə uduzmaq kimi riskimiz var. Bu gün böyük verilənlər bazasının yaradılması, risk qiymətləndirilməsinin daha yüksək mərhələyə qədəm qoyması bütövlükdə sığortanın mahiyyətini dəyişir”*, - deyə Vüsal Qasımlı vurğulayıb.

Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) icraçı direktoru Elmar Mirsalayev isə bildirib ki, Türk Dövlətləri Təşkilatının məqsəd və prinsipləri əsasında formalaşdırılmış Türk Dünyası Sığorta Birliyi çərçivəsində üzv və müşahidəçi təşkilatlarla birgə “Insurtech” platformasının yaradılması ideyasını müzakirə ediblər: *“Insurtech” artıq gələcəyin deyil, bu günün reallığıdır. Türk dünyasında biz bu sahədə böyük potensiala, gənc texnoloji resurslara və ortaq dəyərlərə sahibik. Əgər bu imkanları birləşdirə bilsək, yaxın 5 ildə regionumuzu sığorta texnologiyalarında qlobal mərkəzə çevirə biləcəyik”.*

# Qlobal maliyyə və sığorta bazarlarının gələcəyini texnologiyalar müəyyənləşdirir

“Bu gün Azərbaycan və bütövlükdə Türk dünyasının sığorta sənayesi yeni inkişaf mərhələsindədir”. Bunu Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) Müşahidə Şurasının sədri Ülviyyə Cabbarova “Türk Dövlətləri InsurTech Sammiti 2025” tədbirində çıxışı zamanı bildirib.

O qeyd edib ki, tədbir çərçivəsində qarşılıqlı əməkdaşlıq, birgə layihələr və bilik mübadiləsi gələcək illərdə bazarların dayanıqlı böyüməsinə, yeni məhsul modellərinin yaranmasına və kapitalın



daha səmərəli idarə olunmasına ciddi təsir göstərəcək.

“Bu gün qlobal maliyyə və sığorta bazarlarının gələcəyini texnologiyalar müəyyənləşdirir. Süni intellekt, maşın öyrənməsi, böyük verilənlər və bulud texnologiyaları artıq yalnız dəstək vasitəsi deyil — strateji dəyər yaradan əsas faktor kimi çıxış edir. Bu texnologiyalar əməliyyatların optimallaşdırılmasını, xərclərin azalmasını, müştəri təcrübəsinin fərdiləşdirilməsini və qərarvermənin sürətlənməsini təmin edir. Sevindirici haldır ki, bu trendlər artıq Azərbaycan sığorta bazarında da öz praktiki əksini tapır”, - deyə Ülviyyə Cabbarova vurğulayıb.

# “Yaşıl Enerjinin İnkişafı üzrə Birgə Tədqiqat Mərkəzi”nin yaradılması müzakirə edilib

Energetika naziri Pərviz Şahbazovla “China Energy Engineering Corporation Limited” şirkətinin vitse-prezidenti Lu Xunun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə şirkətlə enerji sahəsində hərtərəfli strateji tərəfdaşlığa uyğun gündəlikdə olan layihələrin icrası ilə bağlı müzakirələr aparılıb.

Dövlət başçısının istehlak və ixrac məqsədilə bərpa olunan enerji mənbələrinin inkişafı, “yaşıl enerji zonaları”nın yaradılması və bu sahədə Çin şirkətləri ilə əməkdaşlığın genişləndirilməsi ilə bağlı siyasəti qeyd olunub. “China Energy Engineering Corporation Limited” şirkəti ilə çoxşaxəli əməkdaşlığın Azərbaycanda bərpa olunan enerjinin inkişafına yeni impuls verəcəyi vurğulanıb. Bu xüsusda, yeni güclərin elektrik şəbəkəsinə inteqrasiya potensialının müəyyənləşdirilməsində Çinin Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu (EPPEI) ilə həyata keçirilən tədqiqatların əhəmiyyəti, həmçinin “Yaşıl Enerjinin İnkişafı üzrə Birgə Tədqiqat Mərkəzi”nin yaradılmasının vacibliyi diqqətə çatdırılıb.

Müzakirələr zamanı dənizdə 200 MVt gücündə külək və quruda 160 MVt gücündə günəş enerjisi layihələri üzrə əməkdaşlığın cari vəziyyəti dəyərləndirilib, növbəti addımlar müəyyənləşdirilib. Biləsuvar və Neftçalada ümumi gücü 760 MVt olan günəş elektrik stansiyalarının inşası və avadanlıqlarla təchizatında şirkətin fəaliyyəti yüksək qiymətləndirilib.



# Azərbaycan Türkiyənin ikinci ən iri qaz tədarükçüsü olub

Azərbaycan 2025-ci ilin avqust ayında Türkiyəni ən çox təbii qazla təchiz edən üç tədarükçü arasında öz mövqeyini möhkəmləndirib.

Trend bu barədə Türkiyənin Enerji Bazarlarının Tənzimlənməsi İdarəsinə istinadla xəbər verir.

Belə ki, hesabat dövrü ərzində Türkiyə Azərbaycandan 1,047 milyard kubmetr təbii qaz idxal edib ki, bu 2024-cü ilin avqust göstəricisi ilə müqayisədə 41,10 faiz çoxdur. Bununla da Azərbaycan, boru kəməri qazı tədarükçüləri arasında Rusiya Federasiyasından sonra ikinci yeri tutaraq aylıq tədarük həcminə görə İran İslam Respublikasını geridə qoyub.

Həmin dövrdə Türkiyə İran İslam Respublikasından 840,01 milyon kubmetr təbii qaz idxal edib ki, bu da ötən ilin eyni dövründəki 491,34 milyon kubmetrlə müqayisədə 70,97 faiz çoxdur. Rusiya Federasiyası isə ən böyük tədarükçü statusunu qoruyaraq avqust ayında 1,835 milyard kubmetrdən çox təbii qaz ixrac edib. Halbuki ötən ilin eyni dövründə bu göstərici 2,274 milyard kubmetrdən artıq olmuşdu.

Ümumilikdə, 2025-ci ilin avqust ayında Türkiyəyə təbii qaz idxalı 4,021 milyard kubmetrdən çox olub və bu, ötən ilin eyni dövründəki təxminən 3,893 milyard kubmetrlə müqayisədə 3,31 faiz artım deməkdir.

# “STAR” neft emalı zavodu neft idxalını əhəmiyyətli dərəcədə artırıb

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədə fəaliyyət göstərən “STAR” neft emalı zavodu (NEZ) 2025-ci ilin avqust ayında xam neft idxalını və neft məhsulları istehsalını əhəmiyyətli dərəcədə artırıb.



Trend bu barədə Türkiyənin Enerji Bazarının Tənzimlənməsi İdarəsinin (EPDK) məlumatlarına istinadən xəbər verir.

2025-ci ilin avqust ayında zavod təxminən 911,3 min ton xam neft idxal edib ki, bu da ötən ilin eyni dövrü ilə (514,25 min ton) müqayisədə 77,2 faiz çoxdur.

Zavodda istehsalda məhsul kateqoriyalarının əksəriyyəti üzrə artım nümayiş etdirib. Dizel yanacağının istehsalı 522,4 min tona çataraq 2024-cü ilin avqustu ilə (336,4 min ton) müqayisədə 55,3 faiz artıb. Aviasiya kerosininin istehsalı 39,6 faiz artaraq 124,1 min tondan 173,2 min tona yüksəlib, nafta istehsalı isə 53,3 faiz artım göstərərək 2024-cü ilin avqustundakı 86,95 min tonla müqayisədə 133,3 min tona çatıb. Mayeləşdirilmiş neft qazının (LPG) istehsalı iki dəfədən çox artaraq 121,6 faiz yüksəlib və 2024-cü ilin avqustundakı təxminən 11,25 min tonla müqayisədə 24,9 min tona çatıb. Koks istehsalı 42,1 faiz artaraq 47,46 min tondan 67,4 min tona yüksəlib.

# Qızılın qiyməti 4 min dollardan da aşağı düşdü

Qlobal birjalarda qızılın qiyməti 3,2 faiz azalaraq təxminən 3 min 984 dollara qədər geriləyib və 10 oktyabrdan bəri ən aşağı səviyyəyə düşüb.



ABŞ-Çin ticarət sazişində əldə olunan irəliləyiş “təhlükəsiz liman” sayılan qızıla olan tələbi azaltdığından, qızılın qiyməti avqustun ortalarından bəri ilk həftəlik enişini yaşayıb.

1 unsiya qızılın qiyməti 3,2 faiz azalaraq 3 min 984 dollara qədər geriləyib. Bu, 10 oktyabrdan bəri ən aşağı göstəricidir.

ABŞ prezidenti Donald Trampın Asiya səfəri çərçivəsində apardığı diplomatik danışıqlar zamanı Çin ilə əhatəli bir razılaşmaya yaxınlaşdığına dair siqnallar qızılın dəyər itirməsinə səbəb olub. Belə bir razılaşma, qiymətli metala olan tələbi artıran iqtisadi riskləri və geosiyasi gərginlikləri azalda bilər.

Ötən həftə qızılın unsiya üzrə qiymətini 4380 dollarlıq rekord səviyyənin bir qədər üzərinə qaldıran sürətli bahalaşma, bazarda “həddindən artıq alış” siqnallarının yaranması ilə ucuzlaşma ilə əvəzlənib. Bu ucuzlaşmaya baxmayaraq, qızıl bu il ümumilikdə 50 faizdən çox bahalaşmışdır.

Bu həftə ABŞ Federal Ehtiyat Sistemi (Fed), Avropa Mərkəzi Bankı (AMB) və Yaponiya Bankı faiz qərarlarını elan edəcək. Fed-in faiz dərəcəsini 25 baza bəndi endirəcəyi, AMB və Yaponiya Bankının isə faizləri sabit saxlayacağı proqnozlaşdırılır. Daha aşağı borclanma xərcləri (faizlər), faiz gəliri olmayan qızılın qiymətinə adətən müsbət təsir göstərir.

# Türkiyənin ixracı rekord həddə çatıb



Türkiyənin ticarət naziri Ömer Bolat ölkədən ixrac olunan məhsul və xidmətlərin həcminin 390 milyard ABŞ dollarına çatdığını, bunun rekord göstərici olduğunu bəyan edib.

*“Oktyabrın 28-nə olan vəziyyətə görə, Türkiyə Respublikasının statistika tarixində ixrac həcmi üzrə yeni rekord qeydə alınıb. 2025-ci il üçün nəzərdə tutulan göstəricilər artıq proqnozlaşdırılandan çoxdur”*, – deyə Türkiyənin naziri bildirib. O, müasir Türkiyənin təkcə nəhəng istehsal mərkəzi deyil, həm də dünya səviyyəsində ixrac və ticarət iştirakçısı olduğunu vurğulayıb.

Nazirin sözlərinə görə, Türkiyənin ixracatçı şirkətlərinin sayı 180 min 396 olub.

***“Əgər Türkiyə Respublikası mövcud olduğu ilk illərdə 24 ölkəyə 30 adda mal və xidmət ixrac edilirdisə, bu gün ölkəmiz 224 dövlətə və gömrük zonasına məhsul və xidmətlər göndərir. İxrac edilən malların adlarının sayı isə 12,8 minə çatıb”***, - deyə Ö.Bolat məlumat verib.

# ABŞ və Yaponiya faydalı qazıntıların tədarükü barədə saziş imzalayıb

ABŞ prezidenti Donald Tramp və Yaponiyanın Baş naziri Sanae Takaiti tənəzzülə davamlı sənayelər üçün vacib hesab edilən kritik minerallar və nadir torpaq elementlərinin tədarükünə dair saziş imzalayıblar. Bu barədə “Reuters” məlumat verib.

Tramp və Takaiti arasında danışıqlar 28 oktyabr tarixində Tokioda keçirilib. Bu, yapon Baş nazirinin 21 oktyabrda vəzifəyə başlamasından sonra Ağ Ev rəhbəri ilə ilk görüşü olub. Tramp üçün isə bu, prezidentliyinin ikinci dövründə Yaponiyaya ilk səfəridir. Ümumilikdə, ABŞ lideri ölkəni dörd dəfə ziyarət edib, sonuncu dəfə 2019-cu ildə.

27 oktyabrda bildirilmişdi ki, Tramp yapon imperatoru Naruhito ilə görüşüb. ABŞ prezidenti 2019-cu ildə taxta çıxandan bəri monarx tərəfindən qəbul edilən ilk xarici lider olub.

“Reuters” qeyd edir ki, Trampın səfəri təkcə simvolik deyil, həm də iqtisadi əhəmiyyət daşıyır. Bundan əvvəl ABŞ prezidenti Tokiodan 550 milyard dollarlıq investisiya öhdəlikləri alıb, bunun müqabilində Vaşinqton idxal tariflərinin yumşaldılmasına razılıq verib. ABŞ ticarət naziri Hovard Latnik və onun yapon həmkarı Resey Akadzava Tokiodakı işçi nahar zamanı enerji infrastrukturu sahəsində mümkün investisiyaları müzakirə ediblər.

# ABŞ-nin dövlət borcu 2030-cu ilə qədər ÜDM-in 143%-nə çatacaq

Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozlarına görə, cari onilliyin sonuna qədər ABŞ-nin ümumi dövlət borcu 20% artaraq ÜDM-in 143,4%-nə çatacaq. Müqayisə üçün, 2024-cü ilin yekunlarına görə bu göstərici 124% təşkil edib.

BVF proqnozlarını ABŞ-də büdcə kəsirinin 2030-cu ilə qədər hər il ÜDM-in təxminən 7%-i səviyyəsində olacağına dair qiymətləndirmələrə əsaslanır, bu isə inkişaf etmiş ölkələr arasında ən yüksək göstəricidir.

Beləliklə, ABŞ dövlət borcunun ÜDM-ə nisbəti bu sahədə ən problemli Avropa ölkələri hesab olunan İtaliya və Yunanıstanın göstəricilərinə yaxınlaşacaq. Məlum olduğu kimi, Yunanıstanda borc yükünün artması 2010-2012-ci illərdə böyük maliyyə böhranına səbəb olmuşdu və həmin dövrdə ölkə avrozonadan çıxmağı ciddi şəkildə müzakirə edirdi. 2024-cü ilin sonunda Yunanıstanın dövlət borcunun ÜDM-ə nisbəti 152%, İtaliyanın isə 135% təşkil edib.

# Belçikada 5,6 milyard avroluq fiasko

Belçikanın ABŞ-dən aldığı F-35 tipli müasir döyüş təyyarələrinin ilk partiyası ölkəyə çatıb, lakin ortaya çıxan problem ölkədə gülüş və çaşqınlıq yaradıb: bu təyyarələr Belçikanın hava məkanında uça bilmir.

Belçika hökuməti 2018-ci ildə ABŞ-dən 34 ədəd F-35 qırıcısı sifariş etmişdi. Müqavilənin ümumi dəyəri 5,6 milyard avro təşkil edir. Beşinci nəsil bu təyyarələr dünyanın ən qabaqcıl hərbi texnologiyalarından biri hesab olunur. İlk təyyarələr artıq təhvil verilib və rəsmi mərasimdə Belçika kralı şəxsən iştirak edib.

Lakin “Le Parisien” və “Le Vif” qəzetlərinin yazdığına görə, təhvil mərasimindən az sonra ordu və hökumət başa düşüb ki, ölkənin məhdud hava məkanı bu təyyarələrin uçuş və təlimləri üçün yararsızdır. Təyyarələr var, amma uçuş yeri yoxdur.

Belçikanın hava qüvvələri illərdir oxşar problemlə üz-üzədir: kiçik əraziyə və sıx hava məkanına malik ölkədə hərbi təyyarələr üçün təlim zonaları çatışmır. İndi isə, milyardlarla avro dəyərində alınan yeni nəsil təyyarələrin belə praktiki istifadəsi mümkün deyil.

Bu vəziyyət Belçikanın müdafiə ambisiyalarına ciddi zərbə vurub. Müdafiə naziri Teo Franken vəziyyətdən çıxış yolu tapmaq üçün Niderland, Norveç və İtaliya ilə danışıqlara başlayıb. Məqsəd Belçika pilotlarının bu ölkələrin hava məkanında məşq etməsinə icazə almaqdır.

F-35-lərin təhvil verilməsi də əvvəlcədən planlaşdırıldığı kimi getməyib. Dörd təyyarənin oktyabrın 13-də Belçikaya çatdırılması planlaşdırılsa da, yalnız üçü gəlib. Dördüncü təyyarə isə texniki nasazlıq səbəbindən Azor adalarında enməli olub. Hazırda ABŞ şirkəti həmin təyyarəni təmir etmək üçün yerində mühəndis komanda göndərib.

Hökumət bu layihəni ölkənin hərbi yenilənməsi və güclənməsi kimi təqdim etmişdi. Lakin indi bu hadisə, yerli mediada, müasir texnologiyaya malik, amma uça bilməyən ordu kimi satirik başlıqlarla tənqid olunur.

# "Regionda İlk: Meyitdən Orqan Nəqli – Uğurlu Təcrübədən Gələcəyə Doğru" mövzusunda Beynəlxalq Elmi Konfrans keçirilib









***25 oktyabr 2025-ci il tarixində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin, Mərkəzi Gömrük Hospitalının və rəsmi tərəfdaş Florence Healthcare İnternational Qrupun birgə təşkilatçılığı, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin və TƏBİB-in dəstəyi ilə Sumqayıt şəhər H.Əliyev Mərkəzində "Regionda İlk: Meyitdən Orqan Nəqli – Uğurlu Təcrübədən Gələcəyə Doğru" mövzusunda Beynəlxalq Elmi Konfrans keçirilib.***

İlk olaraq konfrans iştirakçıları və rəsmi qonaqlar Sumqayıt şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, dahi şəxsiyyətin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini böyük hörmət və ehtiramla yad ediblər.

***"Regionda İlk: Meyitdən Orqan Nəqli – Uğurlu Təcrübədən Gələcəyə Doğru" mövzusunda Beynəlxalq Elmi Konfrans mövzusunda Beynəlxalq Elmi Konfrans Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə öz işinə başlayıb.***

Konfransın rəsmi açılış hissəsində Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim Ceyhun Məmmədov, Milli Məclisin Səhiyyə Səhiyyə Komitəsinin sədri, Akademik Əhliman Əmiraslanov, Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, s.e.d., professor Hicran Hüseynova, TƏBİB-in İcraçı direktor müavini Anar İsrafilov, Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi İdarə Heyətinin sədri, t.ü.f.d. Yeganə Abbasova və digər rəsmi qonaqlar çıxış edərək ölkəmizdə meyitdən orqan nəqlinin həyata keçirilməsinin milli səhiyyə tarixində mühüm mərhələ olduğunu, bu təşəbbüsün elmi və humanitar baxımdan böyük əhəmiyyət daşıdığını vurğulayıblar. Bu uğurun Azərbaycan həkimlərinin yüksək peşəkarlığının, dövlətin diqqət və qayğısı sayəsində həyata keçdiyini, bu sahədə atılan addımların ölkəmizdə transplantologiyanın inkişafına böyük töhfə verəcəyini qeyd ediblər.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov çıxışında bildirib ki, ölkəmizdə hər il yüzlərlə insan orqan transplantasiyasına ehtiyac duyur və bu sahədə meyit donorlardan orqan köçürülməsi yüzlərlə həyatın xilasına imkan yaradır. Meyit donor sisteminin inkişafı orqan çatışmazlığı probleminin həllinə, eləcə də milli səhiyyə sisteminin yeni inkişaf mərhələsinə qədəm qoymasına səbəb olacaq. Ceyhun Məmmədov vurğulayıb ki, 2025-ci ilin fevral ayında Azərbaycanda və bütövlükdə Cənubi Qafqaz regionunda ilk dəfə olaraq Mərkəzi Gömrük Hospitalında transplantoloq Mircəlal Kazımi və onun peşəkar komandası tərəfindən meyit donordan qaraciyər transplantasiyası uğurla icra edilib, elə həmin ilin davamında isə meyit donordan böyrək köçürülməsi əməliyyatı da müvəffəqiyyətlə həyata keçirilib. Bu nailiyyətlər Azərbaycan tibb tarixində mühüm mərhələ olmaqla yanaşı, ölkəmizdə orqan transplantasiyasının inkişafı üçün yeni perspektivlər açıb.

Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin həkim-koordinatoru Mehriban Əliyeva "Mən niyə donor olmalıyam?" mövzusunda çıxış edib. Sonra konfrans öz işini 3 paneldə davam etdirib.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə Komitəsinin Sədr müavini, tibb elmləri doktoru, kardiocərrah Dr.Rəşad Mahmudov və Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədri, t.ü.f.d. Yeganə Abbasovanın moderatorluğu ilə "Meyitdən orqan transplantasiyası: Canlı donorlu orqan transplantasiyası alternativdirmi?" mövzusunda keçirilən I paneldə Səhiyyə Nazirliyinin Orqan donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədr müavini Dr.Günay Abbasova "Meyit orqan donorluğu işinin təşkilində ölkədə mövcud vəziyyət", Mərkəzi Gömrük Hospitalının ümumi cərrahı, transplantoloq Dr. Mircəlal Kazımi "Meyitdən orqan transplantasiyası: Təcrübəmiz", Mərkəzi Gömrük Hospitalının rəisi, Baş həkim Dr.Bəxtiyar Musayev "Meyit orqan transplantasiyasında xəstəxanada administrativ işin təşkili" və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə Komitəsinin Sədr müavini, tibb elmləri doktoru, kardiocərrah Dr.Rəşad Mahmudovun "Ürək çatışmazlığı olan xəstələrdə qaraciyər transplantasiyası, eyni, yoxsa ayrı-ayrı seanslarda?" mövzularında təqdimatlarla çıxış ediblər.

"Qaraciyər transplantasiyası" mövzusunda keçirilən II panel Azərbaycan Tibb Universiteti 1-ci Cərrahi xəstəliklər kafedrasının müdiri, transplantoloq Dr.Nuru Bayramovun və Mərkəzi Gömrük Hospitalının ümumi cərrahı, transplantoloq Dr.Mircəlal Kazıminin moderatorluğu ilə keçirilib. Bu paneldə, Florence Nightingale Xəstəxanalar Qrupunun ümumi cərrahı Prof. Dr.Abuzər Diricanın "Xroniki qaraciyər xəstəliyinə ümumi yanaşma", Florence Nightingale Xəstəxanalar Qrupunun ümumi cərrahı Prof. Dr.Bülent Ünalın "Qaraciyər və böyrək transplantasiyasl zamanı HBV-li, HCV-li, HİV-li donorların (həm canlı, həm də meyit) istifadəsi: Türkiyə və dünya təcrübəsi", Mərkəzi Gömrük Hospitalının anestezioloq-reanimatoloqu Dr.Xəyal Məmmədov "Beyin ölümü keçirmiş donorun əməliyyata hazırlanması və orqanların alınma əməliyyatının aparılması: Anestezioloji və reanimasion yanaşma", Mərkəzi Gömrük Hospitalının ümumi cərrahı, transplantoloq Dr.Kamran Beydullayevin "Qaraciyər transplantasiyasında kimlər donor ola bilər?" və Mərkəzi Gömrük Hospitalının infeksionisti Dr.Mədinə Abdullayevanın "Solid orqan transplantasiya olan xəstələrdə virus hepatitlərin idarə olunması" mövzularında çıxışları dinlənilib.

Florence Nightingale Xəstəxanalar Qrupunun ümumi cərrahları Prof. Dr.Abuzər Dirican və Mərkəzi Gömrük Hospitalının Orqan Transplantasiyası şöbəsinin transplantoloqu Mircəlal Kazıminin moderatorluğu ilə "Böyrək transplantasiyası" mövzusunda keçirilən III paneldə Leyla Tibb Mərkəzinin uşaq nefroloqu Dr.Zaur Əhmədovun "Uşaqlarda xroniki böyrək çatışmazlığı və böyrək transplantasiya zamanlanması", Mərkəzi Gömrük Hospitalının şöbə rəisi, nefroloq Dr.Mirməsim Məmmədovun "Böyüklərdə xroniki böyrək çatışmazlığı və böyrək transplantasiya zamanlanması" və Mərkəzi Gömrük Hospitalının nefroloqu Dr.Şəbnəm Qədiməliyevanın "Meyitdən böyrək transplantasiyası nefroloqun gözü ilə" mövzularında çıxışları maraqla qarşılanıb.

Panel müzakirələrdən sonra konfrans öz işini yekunlaşdırıb. Müxtəlif dövlət və özəl tibb müəssisələrində çalışan 200 nəfərədək həkimin iştirak etdiyi konfrans Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Davamlı Tibbi Təhsil üzrə elm və tədris tədbirlərinin akkreditasiya Qaydaları" əsasında akkreditasiya olunaraq 7 DTT balı ilə qiymətləndirilib.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# "AzerGold" QSC-nin nümayəndə heyəti "LME Week" tədbirində iştirak edib

***"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) nümayəndə heyəti metal hasilatı və satışı sahəsində dünyanın ən nüfuzlu tədbirlərindən biri olan və Londonda keçirilən "London Metal Exchange Week" (LME Week) tədbirində iştirak edib.***



Səfər çərçivəsində nümayəndə heyəti metal sənayesində tətbiq olunan yeni texnologiyalar, süni intellekt və rəqəmsal innovasiyaların rolu, həmçinin davamlı inkişafın gələcək perspektivləri mövzularında keçirilən müxtəlif sessiyalarda və panel müzakirələrində iştirak edib. Tədbir müddətində iştirakçılar dağ-mədən, metal hasilatı və ticarəti sahəsində fəaliyyət göstərən beynəlxalq şirkətlərin nümayəndələri ilə qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi imkanları ətrafında fikir mübadiləsi aparıblar.

"AzerGold" QSC-nin nümayəndə heyəti həmçinin "LME Week" ərzində dünyanın aparıcı metal ticarəti şirkətlərindən biri olan "Trafigura" tərəfindən təşkil edilmiş rəsmi qəbulda iştirak edib, həmçinin şirkətin ofisində keçirilən ikitərəfli görüşdə iştirak edib. Görüş zamanı "AzerGold" QSC və "Trafigura" arasında mövcud və potensial əməkdaşlıq istiqamətləri, gələcək inkişaf perspektivləri müzakirə olunub.

"LME Week" tədbiri dünya üzrə dağ-mədən və metallurgiya sənayesinin, eləcə də maliyyə institutlarının ən mühüm görüş platformalarından biri hesab olunur. Burada qlobal metal bazarının trendləri, qiymət dinamikası və strateji tərəfdaşlıqlar müzakirə edilir.

Tədbir, alüminium ərintiləri, qalay, nikel, sink, qurğuşun, ilkin alüminium, mis və gümüş kimi əlvan metallara dair beynəlxalq ticarətin inkişafında mühüm rol oynayır.

# "AzerGold" QSC və Abu Dabi Ticarət Bankının nümayəndələri arasında görüş keçirilib




"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) İdarə Heyətinin sədri Zakir İbrahimov Abu Dabi Ticarət Bankının (Abu Dhabi Commercial Bank – ADCB) nümayəndələri ilə görüş keçirib.

Görüş zamanı Zakir İbrahimov qonaqlara "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) fəaliyyət istiqamətləri, son illərdə əldə olunan əsas nailiyyətlər və qarşıya qoyulan strateji hədəflər barədə ətraflı məlumat verib. O, Cəmiyyət tərəfindən dağ-mədən sənayesinin inkişafı, ətraf mühitin mühafizəsi, sosial layihələrin icrası, yüksək ekoloji standartlara cavab verən innovativ texnologiyaların tətbiqi, dayanıqlı inkişaf prinsiplərinin təşviqi və sektorun rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində həyata keçirilən təşəbbüslərdən bəhs edib.

Öz növbəsində Abu Dabi Ticarət Bankının nümayəndələri "AzerGold" QSC-nin Azərbaycanın qeyri-neft sektorundakı aparıcı mövqeyini, eləcə də geoloji kəşfiyyat və mədən layihələrinin icrası sahəsində əldə etdiyi uğurları yüksək qiymətləndiriblər.




**Azeri Light markalı neftin 23-29 oktyabr tarixləri üzrə satış qiyməti, barel/ABŞ dolları**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə professor Elçin Xəlilova anası
**RƏNA HÜSEYN QIZI XƏLİLOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Ziyad Səmədzadə professor
**RAFİQ MEHDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Akademik Ziyad Səmədzadə ailəsi ilə birlikdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri, iqtisad elmləri doktoru, professor Xatirə Hüseynovaya anası **ZƏKİYYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi professor Xatirə Hüseynovaya anası **ZƏKİYYƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor Bəyalı Ataşov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri, iqtisad elmləri doktoru, professor Xatirə Hüseynovaya anası **ZƏKİYYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə professor Elçin Xəlilova anası
**RƏNA HÜSEYN QIZI XƏLİLOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Prezidenti yanında AAK-ın Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED.2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə Dissertasiya Şurasının üzvləri professor Xatirə Hüseynovaya anası
**ZƏKİYYƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev**

**Dizayner:**
**Lamiyə NƏBİYEVA**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**